Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# İstiqlal şairi Xəlil Rza

**Xalq şairi Xəlil Rzanın 90 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2022**

**Tərtibçi:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**“İstiqlal şairi” - Xəlil Rza** Ulutürkün 90 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. Ruhiyyə Məmmədli; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. – 45s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

# Silahı söz və sevgi olan insan




Azərbaycanın azadlığı və istiqlalı yolunda çarpışan, bütün həyatını, yaradıcılığını bu müqəddəs amala həsr edən Xəlil Rza Uluturk milli poeziyamızın qranit sütunlarından biridir. O, bütün ömrü boyu ictimai-siyasi fəaliyyəti ilə xalqımızın gələcəyinə xidmət etmişdir. Dünyasını vaxtsız dəyişsə də, Xəlil Rza Ulutürk həmişə ruhumuzda yaşayan, bizimlə birlikdə sabaha addımlayan, daha obrazlı desək, bu günün və gələcək dövrlərin şairidir.

Azərbaycanın istiqlalı yolunda dönməz mübarizə çevrilən Xəlil Rza düşmənlərlə misra-misra, şeir-şeir döyüşdü, yurdumuzun müstəqillik qazanmasında misilsiz fədakarlıq göstərdi. Aldığı mənəvi yaralar, üzləşdiyi mərhumiyyətlər şair ömrünü gödəltsə də, müstəqilliyimizin ilk illərində onu

həyatdan aparsa da, böyük amal sahibinin zəngin yaradıcılığı bugün də onun mübarizə yolunda məşəl kimi yanır.

Xəlil Rza Ulutürk keçən əsrin 50-ci illərində yaradıcılığa başlamış, 60-70-ci illərdə bir sənətkar kimi püxtələşmiş, 80-90-cı illərdə Azərbaycanın azadlığı və istiqlaliyyəti uğrunda mübarizə aparmışdır. Xəlil Rzanın yaradıcılığı ilk illərindən ədəbi istimaiyyətin diqqətini cəlb etmiş, Məmməd Arif, Məmmədcəfər Cəfərov, Yaşar Qarayev, Əkbər Ağayev, Qulu Xəlilov, Şamil Salmanov və digər alimlər onun əsərləri haqqında təqdiredici elmi qənaətlərini söyləmişlər.

Xəlil Rza oğlu Xəlilov 1932-cü il oktyabrın 21-də Salyan bölgəsinin Pirəbbə kəndində anadan olmuşdur. Babası Xəlil kişi 1933-cü ildə qara maşına basılıb gedər-gəlməzə göndərilmiş ailənin ağır məişət qayğıları o zaman şairin atası Rza kişinin çiyinlərinə düşmüşdü. Güzəranları yaxşı olmadığı üçün ailə elə o vaxtdan Salyana köçmüşdür. Xəlil Salyandakı 2 nömrəli məktəbin birinci sinfinə qəbul edilmişdir. İkinci Dünya müharıbəsi başlayanda atası Rza kişi orduya çağrılmışdır. O, 1941-1945-ci illərdə Moskva ətrafındakı döyüşlərdə fədakarlıq göstərmişdir.

Xəlilın üzünü görmədiyi babası Rüstəm kişi “əkin üstə” bolşeviklər tərəfindən güllələnmişdir. Xəlil Rza 1949-cu ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika şöbəsinə daxil olmuşdur. Tələbəlik illərində o, əvvəlcə professor Cəfər Xəndanın, sonra isə şair Bəxtiyar Vahabzadənin başçılıq etdikləri ədəbiyyat dərnəyinin ən fəal üzvlərindən olmuşdur. Şeirləri dövrü mətbuatda müntəzəm çap olunan gənc şair 1954-cü ildə Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul edilmişdir. Elə həmin ildə Xəlil Rza ali məktəbi yüksək

qiymətlərlə bitirmişdir. O, “Azərbaycan qadını” jurnalının redaksiyasına ədəbi işçi götürülmüş, iki il orada çalışmış, yurnalın səhifələrində öz şeirlərini də dərc etdirmişdir.

1957-1958-ci illərdə Xəlil Rza Azərbaycan Yazıçılar İttifaqının tövsiyəsi ilə Moskvaya, M.Qorki adına Ədəbiyyat İstitutu nəzdində fəaliyyət göstərən Ali Ədəbiyyat kurslarında olmuşdur. N.Xəzri, Ə.Kürçaylı, Qabil, M.Araz, S.Tahir, Ə.Əylisli, F.Qoca və başqaları da həmin təhsil ocağında oxumuşlar.

1959-cu ildə təhsilini bitirib Bakıya qayıdan şair bir müddət Azərbaycan Dövlət Pedaqoji İnstitutunda çalışmış, oranın aspirantı olmuş, 1963-cü ildə namizədlik dissertasiyası müdafiə etmişdir.

Beləliklə, çağdaş Azərbaycan poeziyası meydanında qırx ildən bəri külüng vüran Xəlil Rza Uluturkün bu müddət ərzində çətinliklə, halallıqla qazandıqları çox olmuşdur: xalq şairi, əməkdar incəsənət xadimi, filologiya elmləri doktoru, professor, milli hərəkatımızın görkəmli xadımı.

1988-ci ildə Azərbaycan milli azadlıq hərəkatı başlayanda Xəlil Rza da öz ictimai-siyası fəaliyyətini genişləndirmişdir. O, respublikanin bir çox bölgələrində siyasi təbliğat işi aparmış “Azadlıq” radiosuna intervülər vermiş, 20 Yanvar hadisələri haqqında həqiqətləri dünya ictimaiyyətinə bəyan etmişdir.

1990-cı il yanvarın 26-da Xəlil Rza guya milli ədavəti qızışdırdığına görə həbs edilmişdir. 1990-cı il yanvarın 26-dan 4 oktyabra qədər şair Moskvanın Lefertova zindanında saxlanılmışdır. Azadlığa buraxıldıqdan sonra 1991-ci il aprel ayının 15-də Rəfiq Zəka Xəndanla birlikdə Türkiyəyə getmişdir. Ömrünün son illərində şair müalicə məqsədilə

Türkiyə, Almaniya, və Fransada olmuş, 21 iyun 1994-cü ildə şəkər xəstəliyindən vəfat etmişdir. O, Bakıdakı Fəxri Xiyabanda dəfn olunmuş, qəbri üstündə əzəmətli heykəli ucaldılmışdır. Şair 1995-ci ildə (ölümündən sonra) unummilli liderimiz Heydər Əliyev tərəfindən Azərbaycan Respublikasının " İstiqlal" ordeni ilə təltif edilmişdir.

## Milli poeziyamızın qranit sütunu

### *II Bölmə: Yubiley tədbirlərinin keçirilməsi*

Beləliklə, Azərbaycanın azadlığı və istiqlalı uğrunda mübarizə aparan, ölməz şair Xəlil Rza Ulutürkün bu il 90 illik yubileyi qeyd olunur. Bu münasibətlə respublikamızın bir çox təhsıl ocaqlarında, məktəblərdə, kitabxanalarda və başqa yerlərdə bir sıra tədbirlərin keçirilməsi məqsədəuyğundur. Həmçinin, bu il F. Köçərli adına Respublika Uşaq Kitabxanasında da bir sıra tədbirlərin keçirilməsı nəzərdə tutulmuşdur. Kitabxanada ilk növbədə Xəlil Rza Ulutürk yaradıcılığının geniş təbliği üçün kitab sərgisi tərtib edilir.

Təşkil olunmuş kitab sərgisinə "Xəlil Rza Ulutürk-90", "Azadlıq nəğməkarı", "Mübarizlər şairi", "Mübariz poeziya ustası" və s. başlıqlar vermək olar. Sərginin nümunəsini veririk:

1. **Başlıq-** Xəlil Rza Ulutürk-90
2. X. Rzanın portreti.
3. Görkəmli insanların X.R.Ulutürk haqqında söylədikləri
4. X.Rzanın seçilmiş əsərləri - 2 cilddə
5. X.Rza - “Türkün dastanı”
6. X.Rza - “Davam edir- 37”
7. X.Rza - “Ayla günəş arasında”
8. X.Rza - “Hara gedir bu dünya”
9. X.Rza - “Uzun sürən gənclik”
10. X.Rza - “Qəhrəman Təbrizim”
11. X.Rza  - “Bahar gəlir”
12. X.Rza - “Doğmalıq”










Xəlil Rza Ulutürk
Bir odlu gözləri,
bir də xoş səsi


XƏLİL
RZA
SEÇİLMİŞ
ƏSƏRLƏRİ


XƏYAL RZA
O DÜNYADA
GÖRÜŞƏRİK


XƏLİL RZA ULUTÜRK
TÜRKÜN
DASTANI


LEFORTOVO
ZİNDANINDA
XƏLİL RZA ULUTÜRK


XƏLİL RZA
ULUTÜRK
DÜNYAYA
PƏNCƏRƏ


Xəlil Rza
Ulutürk
AYLA GÜNƏŞ
ARASINDA


Xəlil Rza ULUTÜRK
Seçilmiş
əsərləri


Xəlil Rza
Ulutürk
SEÇİLMİŞ
ƏSƏRLƏRİ




https://drive.google.com/file/d/1e_Rr1e06H3BbRnALz6Tum_GqmZ7X9nHb/view

https://drive.google.com/file/d/1hrL9VW8Xbryu96bKHplkR2_-cjYMiH_y/view

https://drive.google.com/file/d/1p9OxaPcE7z_UdkXh2CbwdtpgHl45kPVq/view

https://drive.google.com/file/d/1Pp4nw00iltSZLgDLd4PwLtWP9xE6Iwb6/view

https://drive.google.com/file/d/1obXR-rtdZ8XdMhsdT58-LGryHPSyBzV2/view

https://drive.google.com/file/d/1Y0bFt9VyvZyIlhYa-6jNd3zDYrkPLdtf/view

## Tanınmış şəxsiyyətlərin Xəlil Rza Ulutürk haqqında söylədiyi kəlamlar

Xəlil Rza bir vətəndaş, bir insan kimi bütün xüsusiyyətləri ilə həmişə seçilmişdir. Mən daim onun yaradıcılığına, ən çox cəsurluğuna, əyilməzliyinə, öz ideyalarından dönməzliyinə hörmət etmişəm, onu yüksək qiymətləndirmişəm... Güman edirəm ki, Xəlil Rzanın parlaq həyatı, onun böyük vətəndaşlığı, milli azadlıq uğrunda mübarizliyi bütün azərbaycanlılar üçün nümunə olacaqdır.

**Heydər Əliyev,**
*Ulu öndər*

Vətənin və şairin taleyi ayrı heç yerdə, heç kəsdə bu qədər Xəlildəki qədər bir - birinə bənzəmədi. Yalnız həqiqətən xalis fitri şairlər həyatın, şəhidliyin sınağına, həm də poeziyanın imtahanına bu tamlıqda, bu səviyyədə hazır olurlar. Əslində, indiyə qədər də Xəlil qüvvətli ruhun, fəhmin təcəssümü olan bir varlıq idi, indən belə də ruhun simvolu olaraq qalacaqdır.

**Yaşar Qarayev,**
*Ədəbiyyatşünas*

Xəlil Rza Ulutürk təkcə böyük şair, görkəmli alim, tərcüməçi deyil, həm də gələcək yüzilliklərin gözünə dik baxan göz bəbəyimizdir.

**Şahmar Ələkbərzadə,**
*Şair*

Xəlil Rza böyük söz ustasıdır, poeziya quludur, sənət fədaisidir, söz sərkərdəsidir.

**Məmməd Araz,**
*Xalq şairi*

Xəlil Rzanın böyüklüyü ondadır ki, o, doğma torpağının azadlığı, xalqının səadəti yolunda öz canından belə keçməyə hazır olan, son dərəcə də cəsarətli, qeyrətli şair-vətəndaş idi. Onun zəngin və mərdanə poeziyası da məhz Vətən və xalq idealları ilə mayalandığı üçün əsrlər boyu ürəklərdə yaşayacaqdır.

**Bəxtiyar Vahabzadə,**
*Xalq şairi*

Şair və tərcüməçi Xəlil Rzanın ürəyinə dünya yerləşirdi. Xəlil Rza evinə, Xəlil Rza varlığına dünyanın hər yerindən şüa-şüa xətlər çəkmək olar ki, böyüklüyü aşkar görünsün. Sözün qüdrətilə mənzərə yaratmaq, bədii surətin portretini çəkmək onun şeirləri üçün səciyyəvidir.

**Bəkir Nəbiyev,**
*Ədəbiyyatşünas*

Yarlı-yaraqlı Xəlil,
Sinəsi dağlı Xəlil,
Vətən döyüşlərində
Təbriz bayraqlı Xəlil!

**Qabil,**

Kitabxanada keçiriləcək tədbirlərdən biri də kiçik yaş qrup oxucular arasında keçirilən səhərcikdir. Səhərcikdə şairin kiçik yaşlı oxucular üçün yazmış olduğu “Gültac balam”, “Qaranquş”, “Durna qatarı”, “ Kirpilər”, “Qırqovul”, “Sual-cavab” və s. şeirlərini hazırlamaq məqsədə uyğun olar.

Səhnəyə bir oxucu qız və oğlan daxil olur.

I oxucu qız: Sual verir.
I oxucu qız: Kimdir ən böyük şair?
II oxucu oğlan: Mənim babam Nizami
I oxucu qız: Ən qəhrəman sənətkar?
II oxucu oğlan: İmadəddin Nəsimi
I oxucu qız: İldırım surətli at?
II oxucu oğlan: Koroğlunun Qıratı
I oxucu qız: Qısa qaynar bir həyat?
II oxucu oğlan: Cabbarlının həyatı
I oxucu qız: Dünyada ən gözəl səs?
II oxucu oğlan: Xanın, Bülbülün səsi
I oxucu qız: Ən doğma, yaxşı ölkə?
II oxucu oğlan: Azərbaycan ölkəsi

Oxucular ikisi birlikdə:
Azərbaycan ölkəsi
Azərbaycan ölkəsı.

Orta yaşlı oxucularda təbiət möcüzələrinə həvəs yaratmaq və şairin təbiət gözəlliklərinə həsr olunmuş şeirlərini təbliğ etmək üçün “Xəlil Rza Ulutürkün yaradıcılığında təbiət möcüzələri” başlığı altında poeziya gecəsi keçirmək olar. Poeziya gecəsinə bir ay qabaqcadan hazırlaşmaq lazımdır. Beləki, şairin bu silsilədən olan “Gözəl Astaram”, “Türkan baharı”, “ Göygöl”, “Şuşam”, “Ağdam”, “Xınalı qayalar”, “ Göy-gölə gedək” və s. kimi şeirlərini oxuculara tövsiyə etmək olar.

Böyük yaş qrup oxucularla X. Rzanın son illərdə nəşr olunmuş “Uzun sürən gənclik”, “Qəhrəman Təbrizim”, “Ayla Günəş arasında” əsərləri əsasında tövsiyə albomu da hazırlamaq olar. Həmçinin şairin ən məşhur poemalarından biri olan “Davam edir-37” poemasının müzakirəsini də keçirmək olar.

“Davam edir-37” poeması siyasi poemadır. Poemada şairin qiymətli siyasi lirika nümunələri toplanmışdır. Onun siyası lirikası məzmunca yeni olmaqla yanaşı, öz hərarəti, gərgin dramatik özəyi, münaqişə ruhu, odu-alovu, daxili yanğısı etibarılə seçilirdi. 70-ci illərin sonlarıda başlayan 80-cı illərdə vüsətlənən, 90-cı illərin əvvəllərində kulminasiya nöqtəsinə çatan Azərbaycan azadlıq hərəkatında siyasi şeirləri, publisistikası çağdaş gəncliyin milli ideologiyanı başa düşüb qavraması, onunla silahlanması və milli özünüdərkində bir məktəb olmuşdur. Poemanı oxuculara tam açıqlamaq üçün “Davam edir-37” poemasından bəzi parçaları veririk:

I ci oxucu oğlan: Yox, unuda bilmərik biz
Ağ canavar iştahıyla yurdu söküb tökənləri,
Bir dəstəni qana çəkən dəstəbaşı təkələri.
Rəhbər xadim sayılardı baş kəsənlər, göz ovanlar
-Haqq –bağıran boğazlara qurşun tökdü
Markayanlar, Qriqoryanlar.
Yanda durdu Topuridze, asta cəllad, usta cəllad.
Adı doğma, ürəyi yad
Cin Cəfərin əllərilə viran qaldı xanimanlar.

(Poemanın digər hissəsindən)

II ci oxucu qız: Yox, unuda bilmərik biz
Bircə üskük şöhrət üçün
Göz dikdiyi sərvət üçün mənliyini satanları,
Xirtdəyəcən bataqlığa batanları.
-Daloy muğam!
-Daloy papaq!
-Daloy tar da!
-Daloy saz da!-deyib lığa batanları

III cü oxucu oğlan: Xəyanətə qurban getdi tər bənövşə,
bahar Müşfiq.
Hələ də bu cinayətə zirvələrdən baxan Müşfiq.
Xəyanətə qurban getdi neçə igid,
Pensneli, zər əsalı,nur heykəli ulu Cavid
Qurban getdi dağ billuru Yusif Vəzir
Yalçın qaya-Əhməd Cavad

(Poemanın digər hissəsindən)

IV oxucu qız: Nə qədər ki, başçı olur başsız canlar,
Bir millətin mənliyini talam-talam talayanlar,
Nə qədər ki, mənə əxlaq dərsi verir
Fərarilər, boşqab dibi yalayanlar,
Nə qədər ki,
-Demokrati!
-Aşkarlama-deyə-deyə boğaz yırtır
Bu zücülər, zurnaçılar, şeypurçular,
Nə qədər ki, cəzasızdır
Xankəndimdə evlər yıxan, ürək yıxan yırtıcılar,
Davam edir-37
Daha kəskin, daha ciddi!

Kitabxanada Xəlil Rza Ulutürkün yaradıcılığını oxuculara daha aydın çatdırmaq məqsədilə metodis slayd hazırlayıb kitabxananın oxu zalında iştirakçılara təqdim edir.

https://www.youtube.com/watch?v=iMho-nTtcPs
https://www.youtube.com/watch?v=yhXOi88Gw1Y
https://www.youtube.com/watch?v=VazcF7onzkg

Kitabxanada Xəlil Rza Ulutürkün yaradıcılığını tanıtmaq məqsədilə oxucular arasında şeir müsabiqəsinin keçirilməsi məqsədəuyğundur. Bu məqsədlə oxucular Xalq şairi Xəlil Rza Ulutürkün qələmə aldığı ədəbiyyatlarla tanış olub, şair haqqında maraqlı məlumatlar toplayırlar. İndi isə "Qaytar mənim qüdrətimi, Azərbaycan!" adlı kompozisiyanı sizə təqdim edirik.



Başım, beynim tüstülənir, varlığımda kədər, təlaş.
Gözlərimdə ildırımdır damla-damla axan qan-yaş.
Mən yenidən doğulmasam, daşam, inan, qupquru daş.
Taqətim ol, qeyrətim ol, qoy dirçəlim yavaş-yavaş.
Sənsən həsrət gözlərimin həm qarası, həm də ağı.
Qaytar mənim qüdrətimi, Odər yurdu, Od torpağı!

Mən bilirəm: dərdlərini yumruğunda sıxacaqsan.
Sən bu dibsiz cəhənnəmdən çıxacaqsan…Üzü ağsan.
Nurlu dağsan… zülmət dağı devirəcək, yıxacaqsan.
Boğazından yapışanı boğmalısan, boğacaqsan.
Təbrizləri, Ülviləri sən yenidən doğacaqsan.

Öz bətnindən doğacaqsan İstiqlalı, Azadlığı.
Qüdrətim ol, ey ümidim, ey qəhrəman Od torpağı!

Nə Bağ Ata əfsanədir, nə Nizami, nə də Babək.
Gözlərinə Nəiminin, Nəsiminin şəklini çək.
Həqiqəti dəfn eləmək istəyənlər gəbərəcək.
Bağrı yanmış Qarabağım bir də qalxıb göyərəcək.
Göyərəcək çiçək-çiçək, lalə-lalə, ləçək-ləçək.
Gözlərimin çeşməsilə suvarıram o növrağı,
Növrağımsan, bayrağımsan, Odər yurdu, Od torpağı!

Ballı qaya…Ərimgəldi… Xaçındərbənd…Cıdır düzü…
Xəzinəmdir yerin altı, saf aynamdır göyün üzü.
O çöllərdə Təbrizimin əl həniri, ayaq izi…
Qoy bürüsün Qarabağı gül sərgisi, gül dənizi.
Alaq düşmən caynağından Sırxavəndi, Canyatağı.
Yatağım yox, otağım yox, varlığımsan, Od torpağı.

Qudurğanlar dinc durmasa, Daşqın, Tufan olasıyam.
Yırtıcılar dünyasını burulğana salasıyam.
Nakam gedən mərdlərimin qisasını alasıyam,
Ölsəm belə, bu aləmə mən yenidən gələsiyəm,
Anaların gözlərindən qanlı yaşı siləsiyəm,
İnan mənə: əbədisən, ey bəşərin haqq bayrağı,
Batan, çıxan Günəşimsən, Odər yurdu, Od torpağı!

Ürəklərdən alov qalxır: – Can Daşaltı!.. Can Xocalı!
Pulemyotlar, toplar coşdu: – Sovrul göyə, yan Xocalı!
Dağın, daşın başdan-başa qan dənizi, qan Xocalı!
O dəhşəti, o vəhşəti min illərlə an, Xocalı!

Şəlalələr qana döndü, qan-yaş gördüm hər bulağı.
Boynubükük bənövşəni kimlər qırdı, Od torpağı?

Qaranlıqda oğru kimi yurda gecə girdi onlar,
Ulduzları güllələyib göydən yerə sərdi onlar.
Beşiklərdən tər qönçəni, ilk nübarı dərdi onlar,
Çocuqlara əmzik deyil, od lüləsi verdi onlar.
İsti külə döndərdilər bar üstündə min budağı,
Unutmazsan o alçağı, Odər yurdu, Od torpağı!

Yadda saxla, qoca tarix, mən Türk oğlu Ulutürkəm.
Əhrimənlər qarşısında sanma çökəm, boyun bükəm.
Bircə kişi qalsam belə, güman etmə, yalqız, təkəm.
Mən – dünənəm, mən – bugünəm, gələcəyəm, yerəm-göyəm.
Həzrət Əli qılıncıyam, oddan gərək bir qın geyəm.
Kəsib keçəm xəyanəti, cinayəti, alçaqlığı.
Eşqim, hüsnüm, cəlalımsan, Odər yurdu, Od torpağı!

Əhrimənlər yuvasını darmadağın edəcəksən,
Qalxıb sabah Aya, Marsa, ulduzlara yetəcəksən.
Altı milyard insanlığam, qarı düşmən, sənsə təksən.
Zəhər saçan bir əfisən, tor quran bir hörümçəksən,
Təpiyimin altındaca gəbərəcək, öləcəksən.
Təbərrikim, tutiyam bil Qaradağı, Qarabağı.
Yüksəl Günəş mövqeyinə, Odər yurdu, Od torpağı!

**Kompozisiyanın sonunda iştirakçılar Xəlil Rza Ulutürkün "Oğlum Təbrizə" şeirini söyləyirlər.**

Qoy sənə doğulan günəş deyim ki,
Nurunla açılan al səhərəm mən.
Yeddi il yol gələn, a mənim ilkim,
Gəldiyin yollara gül düzərəm mən.
***
Özüm də bilmirəm nə işdir bu iş,
Yerdənmi, göydənmi tapmışam səni.
Bəlkə də səni heç tale verməmiş,
Taleyin əlindən qapmışam səni.
***
Sən-bu gün sevincim, qanadım-qolum,
Dünən ürəyimə dağ olmusan sən.
Heç ana bətninə düşməmiş, oğlan.
Bu ata könlümdə doğulmusan sən.
***
Özün də bilmirsən öz qiymətini,
Döyüş səngərimsən, qalamsan mənim.
Bir evin qeyb olmuş səadətini
Min evə qaytaran balamsan mənim.
***
Ən böyük sevincsən, ən müqəddəs qəm,
Məni od içinə atan Təbrizim.
Üzünə baxanda balam deyirəm,
Adını çəkəndə -atam Təbrizim.
***

Mən səni görəndə çırpınır qəlbim,
Deyirlər naşıyam, görməmişəm mən.
Alıram boynuma niyə gizlədim,
Sənin tək səadət görməmişəm mən.
***

Anan süd veribdir fəqət mən sənə.
Köksümdə közərən odu vermişəm.
Seçib milyon-milyon adlar içindən,
Dünyada ən gözəl adı vermişəm.
***
Sən-oğul, sən-igid, sən -ər oğlu ər!
İftixarla daşı sən öz adını.
Məğribə, məşriqə, aləmə göstər
Alnında gizlənmiş istetadını.
***
Bir səhər, bir günəş var mənzilimdə,
Qoy dünyalar bilsin nəçisən, kimsən.
Kiçik mənzilimdə, dar mənzilimdə
Sən ucsuz-bucaqsız məmləkətimsən.
***
Ey bala Təbrizim, gün o gün olsun
Ana Təbrizimə mən azad deyim,
Ustad Şəhriyarla görüşün olsun.
Təbrizi Təbrizə qol-qanad deyim.
***
Arzular könlümdə çeşmə-çeşmədir,
Arzular qoynunda boy atmış könül.
Səni arzum üçün, amalım üçün,

Səni döyüş üçün yaratmış könül.
***
Atanın ömrünə oğul yaraşıq,
Qoy bir nəfəs alım daha dərindən.
Mən öz Təbrizimlə bugün yanaşı
Keçirəm Bakımın küçələrindən.
***
Bu gün yağış yağır...qorxma yağışdan!
Tufanda, şimşəkdə bərkisin canın.
Sən mənim balamsan, mən sənin atan
Bir bir cüt oğluyuq Azərbaycanın.

Xəlil Rza Ulutürkün ədəbi irsinin oxucular arasında daha geniş yayılması üçün kitabxanada **ədəbi-bədii gecə**nin keçirilməsi daha məqsədə uyğun olardı. Qeyd etmək lazımdır ki, bu tədbir oxucuların ən çox sevdiyi tədbirlərdəndir. Tədbirə məktəblərdən ədəbiyyat müəllimlərinin, Xəlıl Rzanın tədqiqatçılarının və alimlərin dəvət olunması məsləhətdir. Ədəbi-bədii gecə iki hissədən ibarət olur. Birinci hissədə kitabxanaçı və qonaqlar şairin həyat və yaradıcılığı haqqında məlumat verməli, sonra isə söz şairin həyat yoldaşı Firəngiz xanıma verilməlidir. İkinci hissədə isə fəal oxucular X. R.Ulutürkün şeirlərindən parçalar söyləyirlər.. İndi isə "Azadlıq nəğməkarı"adlı ədəbi-bədii gecənin ssenarisini veririk.

Səhnənin divarından X.R.Ulutürkün portreti asılır, gül qoyulur, şam yandırılır. Əsərlərindən ibarət sərgi təşkil olunur. Səhnə gül dəstələri ilə bəzədilir. Aparıcı səhnəyə daxil olur.

**I Aparıcı:** ***"Mən günəş ürəkli Xəlil Rzayam, Yer boyda göy boyda təbiətim var. Reyhan yarpağından qarışqayacan yurdumda hər kəsə məhəbbətim var..."*** Əziz və hörmətli qonaqlar! Bu gün biz sizinlə birlikdə vətənpərvər şair, unudulmaz insan X.R.Ulutürkün 90 illik yubileyini qeyd edirik. Bu münasıbətlə sizləri ədbi-bədii gecədə xoş gördük! Ədəbi-bədii gecəni açıq elan edirik. Xəlil Rza Ulutürk dramatik poeziya ustasıdır. O, buna həyatın sərt həqiqətlərini, ziddiyyət və münaqişələrini dərindən öyrənməklə,onları çəkinmədən şerə gətirməklə, can yanğısı sərf etməklə, ilham odu, daxili energi xərcləməklə nail olmuşdur.

**II Aparıcı:** Xəlil Rza özünün mübariz mövqeyi, yüksək vətənsevərliyi və qeyri-adı insanı xüsusiyyətləri ilə xalqın hədsiz məhəbbətini qazana bilmişdir. Fədakar zəhməti ilə seçilən şair son nəfəsinədək öz poetik amalına sadiq qalmışdır. Həyatı, yaradıcılığı, mübarizəsi canlı əfsanəyə çevrilmiş istiqlal şairi Xəlil Rza Ulutürk ötən zamanların mənəvi əsarətində, milli varlığımızın tapdalandığı günlərdə yazırdı:

Buludu şimşəklə parçalayaraq,
Zülməti nur ilə boğacağam mən.
Qərbdə ulduz kimi batsam, Şərqə bax,
Şərqdən günəş kimi doğacağam mən.

**I Aparıcı:** X.R.Ulutürk öz gözəl əsərləri ilə bahəm həmçinin çox məhsuldar tərcüməçi idi. Tərcüməçilik X.Rzanın oxumaq, öyrənmək, biliklərini zənginləşdirmək, bədii zövqünü dünya ədəbiyyatının yüksək səviyyəli nümunələri əsasında tərbiyə etmək zərurətindən doğmuşdur desək yanılmarıq. Onun

tərcümə kitabları arasında ən sanballısı “Turan çələngidir.” O, həmin kitabı 90-cı illərin başlanğıcında,milli azadlıq uğrunda mübarizənin genişləndiyi bir vaxtda tərtib edib. Şair türk dünyasının min ildən artıq zaman vüsətində yaranmış qiymətli poeziya nümunələrindən həqiqətən də gözəl bir çələng hazırlayıb oxuculara təqdim etmişdir.

**II Aparıcı:** X.Rzanın rus dilindən tərcümələrində çox ciddi yaradıcılıq zəhməti, ardıcıl fikir, bədii axtarış, mütərcimin həmin axtarışlara qanad verən məqsəd ucalığı və böyük məhəbbəti vardır. Şairin Puşkin, Lermantov, Nekrasov, Blok, Luqovskoy, Yevtuşenko, Voznesenskidən tərcümələri xüsusilə uğurludur və ədəbiyyatımızın qarşılıqlı əlaqələrinin xəritəsini əlvan boyalarla zənginləşdirmişdir.

**I Aparıcı:**Xəlil Rza poeziyasında, demək olar ki, kiçik mövzu yoxdur, o həyatın kiçik bir zərrəsini təsvir edə bilər, amma məna baxımından bunun hüdudlarına qapanıb qalmır, şeiri sadə şeylərdən ciddi mətləblərə, problemlərə doğru yönəldir. Həyatı genışliyi ilə görmək, duymaq səriştəsi, dövrə, insana, tarixi və mənəvi inkişafın uğurlarına, eləcə də ziddiyyətlərinə ətraflı bələdlik də Xəlil Rza şeirində mühüm məziyyətlərdəndir. Bu baxımdan Xəlilin könül gözəlliyinə həsr edilmiş şeirləri olduqca aktualdır. (“Mən-Azərbaycanam!” şeirindən bir parça)

Dinləyin, dinləyin, mən bir kamanam,
Şərqin sinəsindən qopan fəğanam.
Uzaq əsirlərin dərinliyindən
Sabaha üz qoyan sonsuz karvanam.

Ovçu qabar-qabar, ciyəri təşnə,
Günəşi ardınca çəkən sarbanam.
Bu qoca dünyanın tən ortasında
Bülbülü susmayan bir gülüstanam.
Sovqatı, bəxşişi açıq sinidə,
Ağzının sonuncu tikəsini də
Dosta bağışlayan, düşmənə verən
Dumanlı Təbrizəm, çənli Zəncanam.

Hər şeyi alınıb tükənsə belə,
Eşqi tükənməyəm Azərbaycanam!

Xəlil Rza yaradıcılığında milli özünəməxsusluq, xalqın tarixinə və keçmişinə poetik ehtiram xüsusi vəsv olunurdu. “Bahar gəlir”, “Sevən gözlər”, “Məhəbbət dastanı”, “Mənim günəşim”, “Doğmalıq” kimi kitablarında bu ülvi niyyətin tərənnümü mühüm yer tutur. X.R.Ulutürk poeziyası istiqlalçılıq, azərbaycançılıq, türkçülük, islamçılıq şüur və məfkurəsi ilə zəngin olan, milli ideal və xalq taleyini daha ciddi əks etdirən humanist və xəlqi poeziya kimi əbədi və həmişə bizimlədir. Xəlil Rza Ulutürk kimi şəxsiyyətlər, böyük insanlar xalqımızı daim ruhlandırmış, mübarizəyə çağırmış, milli azadlıq uğrunda öz mübarizəsi ilə nümunə göstərmişdir. Xəlil Rzanın Azərbaycan xalqı qarşısında xidmətləri əvəzsizdir. O, heç vaxt unudulmayacaq. Xəlil Rza xalqımıza böyük ədəbi irs qoymuş, mədəniyyətimizi, ədəbiyyatımızı zənginləşdirmişdir.

Təkcə öz dibinə işıq salmayan,
Hamıya nur verən şamam, şamdanam,
Dinlə, qoca dünya, ey mənim anam:
Min yol öldürülən, yenə ölməyən
Əzəli, əbədi Azərbaycanam!

Ey cahan, bir daha sən məni dinlə:
Göz, könül dolusu hələ gülməyən,
Min yol öldürülən, yenə ölməyən
Əzəli, əbədi Azərbaycanam!

X.R.Ulutürkün ədəbi irsinin geniş bir hissəsi hələ də işıq üzü görməmişdir. Onun zəngin arxivindəki 200-dən artıq qovluqda qiymətli publisist əsərləri-gündəlikləri öz araşdırıcısını və nəşrini gözləyir. Beləliklə, gözəl insan, alovlu şair, bənzərsiz şəxsiyyət Xəlil Rza Ulutürkün əzız xatirəsı Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

Sən elə bilmə ki, köçdüyüm zaman
Dünyadan biryolluq köçəcəyəm mən.
Bir dəfə ölüncə, bəlkə min dəfə
Ölümü tapdayıb keçəcəyəm mən.

X. R. Ulutürk onlarla irili-xırdalı poemanın müəllifidir. O, poemanı poeziyanın seçmə janrı hesab edirdi. Şairin fikrincə söyləyirdi ki, poema mütləq qəhrəmanlıq, nəciblik, ləyaqət, vətənpərvərlik, fədakarlıq ruhu ilə dolu olmalıdır. Hətta müsbət qəhrəman olmasa belə, müsbət ideal mütləq olmalıdır. Bəli, Xəlil Rza dramatik poeziya ustasıdır. O, buna həyatın sərt həqiqətlərini, ziddiyyət və münaqişələrini dərindən

öyrənməklə, onları çəkinmədən şeirə gətirməklə, can yanğısı sərf etməklə, ilham odu, daxili enerji xərcləməklə nail olmuşdur. Şairin lirik qəhrəmanı böyük və cəsur insandır. O, həyatı sadəcə olaraq seyr etmir, yenidən yaradır. Şair cəsarəti həyatı yaxşı bilməklə, dürüst ideya, məfkurə mövqeyi seçməklə, tərəqqi uğrunda mübarizənin ön cərgəsində getməklə, nəhayət, öz bədii istedadına güvənməklə şərtlənir. Vətənsevərlik, humanizm, tərəqqi uğrunda ardıcıl mübarizə, fəal vətəndaşlıq mövqeyi Xəlil Rzanın 80 ci illər poeziyasında xüsusi bir qüvvətlə, zəngin boyalarda meydana çıxmışdır. Yaradıcı insanın gərgin mənəvi axtarışları, özünə inamı, öz mənliyinə güvənməsi, Araz problemi, Cənib həsrəti, ümumən Azərbaycanın milli-mənəvi bütövlüyünün təsdiqi "Ömürdən uzun gecələr" kitabındakı şeirlərin başlıca pafosunu təşkil edir. Sənətkar öz lirik qəhrəmanının qüvvəsinə inanmışdır. İnanmışdır ki, bir fərd öz xalqının mədəniyyət tarixinə işıq sala bilər, cəmiyyətə yaşayıb – yaratmağın yeni etalonunu təqdim edə bilər. Buna görə o, təklənməkdən, yalqız qalmaqdan qorxurdu. "Birdən ... yüz min olmalısan. Fərdsən... Vətən olmalısan! Gülsən... bahar olmalısan. Kəsafəti alt-üst edən təzə ruzgar olmalısan ! söyləyir.

Xəlil Rza Azərbaycan dilinin saflığı, əcnəbi dilin təsirinə məruz qalmaması üçün özünəməxsus mübarizə yolu seçib. O, harada olursa-olsun, doğma dilində təmiz danışmayan müsahibindən eşitdiyi hər yabançı kəlmə üçün 5 qərik cərimə tələb edər, danışdığından məmnun qaldığı soydaşlarını bir manat məbləğində mükafatlandırardı. Beləcə o, müasirlərin diqqətini ana dilinin saflığını qorumağa cəlb etməyə, digər

tərəfdən də ruslaşdırma siyasətinə qarşı mübarizə aparmağa çalışardı.

Azərbaycan ziyalıları zaman-zaman öz yaradıcılıqlarında azərbaycançılıq ideyasına müraciət ediblər. Bu sahədə Xalq şairi Xəlil Rza Ulutürkü xüsusilə qeyd etmək olar. Öz idealı uğrunda mübarizə aparan ziyalılar ordusu içərisində Xəlil Rza Ulutürk istiqlal şairləri Məhəmməd Hadi, Əhməd Cavad kimi tarixi önəm kəsb edib. Xalq şairi Xəlil Rzanın milli idealında azərbaycançılıq qırmızı xətlə keçir. Sənətkarın poeziyasında Vətənin, xalqın ümumiləşmiş obrazı zəngin mənbələrlə, qaynaqlarla müşayiət olunur. Xəlil Rza azadlıq idealı ilə poeziyasına bəşəri məzmun gətirib. O, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi ədəbiyyatşünas alim, ictimai-siyasi xadim, milli demokratik hərəkatımızın mücahidi, Azərbaycan poeziyasında görkəmli ədəbi simadır.Onun poeziyasının kökü, mayası Vətən eşqi, torpaq və dünya ilə bağlıdır. Görkəmli şair yazırdı: "Bizim birinci borcumuz yer kürəsini qorumaqdır. Yer kürəsindəki sonsuz gözəllikləri, Füzulinin və Şekspirin yaratdığı poeziya kəhkəşanlarını, İbn Sinanı qorumaqdır. Bütün təfəkkür korifeylərinin ürəyindən, gözlərindən süzülən ədəbi işığı qorumaq bizim borcumuzdur... Biz öz qüdrətli əllərimizi sərhədlər, okeanlar üzərindən uzadıb bir-birimizi salamlamalı, öz qəlbimizin qərarını qəti bildirməliyik. Yaşasın xalqların azadlıq idealı!"

Oxucular səhnəyə çıxıb Xəlil Rza Ulutürkün  “Azadlıq həsrəti” şeirini söyləyirlər:

Sən demə azadlıq aymış günəşmiş,
O aya o günə həsrət qalmışam.
Həyat səsli küylü bir keşməkeşmiş,
Doğma səsə ünə həsrət qalmışam.

Mənim o yerlərdə ayaq izim var,
Səadət aynası beş dənizim var.
Vəfa xəzinəsi firəngizim var,
Onun ağ üzünə həsrət qalmışam.

Ruhum meydanlara sığmayan alay,
Üç rəngli bayrağım qalx ucal haray.
Öpsün tellərini Xəlil, günəş, ay,
Mən sənin üzünə həsrət qalmışam.

Uzaq diyardayam daş qəfəsdəyəm,
Bir vətən ləhinə teşnə həstəyəm,
Mənə görüş verin səfər üstəyəm,
Balamın gözünə həsrət qalmışam.

Çattırın o gülə gülzara məni,
İtirsən o yerde gəz ara məni,
Qürbəttə qoymayın məzara məni,
Vətən gündüzünə həsrət qalmışam.

Xəlil sən qayasan dərdə dözərsən,
Sən kürsən, xan araz, göygöl xəzərsən,
Yenə o yerləri bir gün gəzərsən,
Demə sən bu günə həsrət qalmışam.

Xəlil Rza poeziyasının səciyyəvi cəhətlərindən biri onun şeirlərinin təsirli, yanıqlı olması, daxili həyəcan və təlatümləri dilləndirməsidir. Həyatın acı həqiqətlərini, ziddiyyətlərini şeirinə gətirərək münasibət bildirən Xəlil Rza Ulutürk dramatik poeziya ustasıdır. Lirik qəhrəmanı inadkar və sarsılmaz, cəsur və mübariz olan şair həyat və sənətdəki ideya movqeyini dürüst seçmiş, öz poetik istedadına güvənərək bu məfkurə uğrunda mübarizənin önündə getmişdir. Odur ki, bir çox, xüsusilə də son illərdəki şeirləri Azərbaycan xalqını böyük ideallar uğrunda səfərbər etmək məqsədi daşıdığından, publisistik ruhu, ciddi ictimai-siyasi pafosa malik əsərlər olub. Şairin mücadilə ruhlu ən yaxşı poetik örnəklərinə nümunə olaraq "Səlahiyyət istəyirəm!", "Silahlan!", "Hara qaçırsan, dayan!", "Qorxaqlıq, cəsurluq" və bu kimi bir çox başqa şeirlərin adlarını qeyd etmək olar. Sevimli Vətənin istiqlaliyyəti ilə usanmaz mübarizə aparmış xalq şairi Xəlil Rza Ulutürkün bu kimi şeirlərinin mərkəzində xalqımızın faciəli taleyi, tarix boyunca əzablardan keçən iztirablı həyat yolu dayanır və müəllif hər bir Azərbaycan vətəndaşını ayıq-sayıq olmağa, çətinliklərdən qorxmayaraq düşmənə sinə gərməyə çağırır. Təkcə Azərbaycanın deyil, bütün türk dünyasının qüdrətli sənətkarı olan Xəlil Rza Ulutürk istiqlalçılıq və türkçülük timsalıdır. İnanırıq ki, böyük şairin həyat və yaradıçılığı hələ çox illər sonra da örnək olaraq yaddaşlarda qalacaq.

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və Biblioqrafiya şöbəsinin kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı**

**Kitabları**

Seçilmiş əsərləri : şeirlər, poema. - Bakı : Gənclik, 2001. - 621 s.

Seçilmiş əsərləri : 2 cilddə. I cild. - Bakı : Şərq-Qərb, 2005. - 296 s.

Seçilmiş əsərləri : 2 cilddə. II cild. - Bakı : Şərq-Qərb, 2005. - 248 s.

Seçilmiş əsərləri. - Bakı : Çaşıoğlu, 2009. - 368 s.

Seçilmiş əsərləri : şeir və poemalar. - Bakı : Təhsil, 2012. - 560 s.

Seçilmiş əsərləri. - Bakı : Xalq Bank, 2014. - 608 s.

Ayla günəş arasında : şeirlər və poemalar. - Bakı : Apostroff, 2014. - 632 s.

Bir odlu sözləri, bir də xoş səsi. - Bakı : Çinar-çap, 2007. - 301 s.

Doğmalıq və ucalıq : şeirlər, poemalar. - Bakı : Apostroff, 2015. - 440 s.

Dramaturgiyada ədəbi əlaqələr. - Bakı : Elm, 2014. - 236 s

Dünyanın ədəbi xəritəsi. - Bakı : Çinar-Çap, 2008. - 694 s.

Dünyaya pəncərə : şeirlər. - Bakı : Çinar-Çap, 2010. - 1152 s.

Firəngiznamə. - Bakı : Apostoroff, 2016. - 432 s.

Gəl, ey səhər. - Bakı : Nağıl evi, 2004. - 420 s.

Gündəliklər. 1-ci kitab : 1962-1965. - Bakı : TEAS PRESS Nəşriyyat evi, 2018. - 674 s.

Hara gedir bu dünya... : şeirlər və poemalar. - Bakı : Apostroff, 2013. - 336 s.

Lefortovo zindanında. - Bakı : Çinar-Çap, 2006. - 482 s.

Mənim tanrım gözəllikdir. - Bakı : Elm, 2009. - 248 s.

Məqsud Şeyxzadə və "Azərbaycan dəftəri". - Bakı : Apostroff, 2014. - 240 s.

Ömür kitabını yazan şairə. - Bakı : Mütərcim, 1998. - 112 s.

Rəfiq Zəka Xəndan haqqında. - Bakı : Mütərcim, 1999. - 138 s.

Şeirlərdən. - Bakı : Aspoliqraf, 2012. - 176 s.

Taparam səni : şeirlər və poemalar. - Bakı : Apostroff, 2014. - 300 s.

Turan çələngi : şeir. - Bakı : QAPP-POLİQRAF, 2005. - 873 s.

Türkün dastanı : şeirlər, poemalar. - Bakı : Gənclik, 2000. - 750 s.

Yeni zirvələrə : şeirlər, poemalar. - Bakı : Apostroff, 2015. - 192 s.

**Əsərləri mətbuatda**

Aman, dostlar! : şeir // Savalan. - 2007. - 23-25 yanvar. - S.3.

Ana dilim ; Mən Azərbaycanam! ; Dədə Heydər - Atatürk ; Yaralı xəritəmiz və b. : şeirlər // Yeni Azərbaycan. - 2012. - 20 oktyabr. - № 194. - S. 7.

Araxçın // Göyərçin. - 2008. - № 2. - S. 14.

Arxeoloq // Savalan. - 2013. - 8-11 fevral. - № 9. - S. 3.

Ayxan bəyin türküsü : şeir // Ədəbiyyat qəzeti. - 2008. - 18 yanvar. - S. 6.

Azadlıq gülüstanı : şeir // Azərbaycan. - 2010. - 17 yanvar. - N 12. - S. 5.

Azadlıq gülüstanı : şeir // Kaspi. - 2018. - 20 yanvar. - № 12. - S. 12.

Dədə Heydər - Atatürk : şeir // Yeni Azərbaycan. - 2013. - 15 iyun. - № 107. - S. 11.

Dədə Heydər - Atatürk : şeir // Yeni Azərbaycan. - 2016. - 10 dekabr. - № 228. - S. 5.

Dədə Heydər - Atatürk : Ümummilli lider Heydər Əliyevə həsr edilmiş şeir // Yeni Azərbaycan. - 2013. - 9 may. - № 82. - S. 10.

Dünyaya pəncərə / tərc. ed. X. Rza // Yeni Azərbaycan. - 2010. - 15 may. - N 85. - S. 10.

Düşüncələr. Ovcumun aynasında : Şeirlər // Vəfa. - 2006. - №3-4. - S.9.

Gəncənin çinarları : şeir // Savalan. - 2010. - 6-8 aprel. - N 19. - S. 2.

Gözmuncuğu : şeir // Savalan. - 2013. - 24-26 sentyabr. - № 70. - S. 3.

Gülzara çevirək : şeir // Göy qurşağı. - 2010. - N 6. - S. 2-3.

Heç kəsə açmaram : şeir // Savalan. - 2013. - 5-7 noyabr. - № 82. - S. 3.

Həyat düşüncələri // Savalan. - 2008. - 14-20 oktyabr. - S. 3.

Xəzərin mirvarisi : şeir // Savalan. - 2013. - 20-23 dekabr. - № 95. - S. 2.

Xəzərin mirvarisi : şeir // Savalan. - 2018. - 6-12 mart. - № 13. - S. 8.

Xəlil Rza Ulutürk: XX əsrdə türk xalqları üçün türkçülük ideologiyasından böyük amal olmayıb // Ədəbiyyat qəzeti. - 2018. - 26 may. - № 20. - S. 14-15.

Kamranın səhvi : şeir // Savalan. - 2011. - 8-10 fevral. - № 7. - S. 5.

Qara cöngə ; Sağıcıdır mənim nənəm // Bu yurdu kim sevməz ki... : Məktəblilər üçün. Tumurcuq yayınları №12. - Bakı : 2011. – S. 9.

Laylam mənim, nəvəm mənim ; Xiyabani yurdunda ; Ata borcu : şeirlər // Ədəbiyyat qəzeti. - 2015. - 3 oktyabr. - № 52. - S. 12.

Maestro : Maestro Niyazi haqqında // Ədəbiyyat qəzeti. - 2006. - 11 avqust. - S.1,2,5.

Mən Azərbaycanam : şeir // Füyuzat. - 2016. - № 4. - S. 30-31.
Mən yenə dönərəm Azərbaycana ; Azadlıq : şeirlər // Ədəbiyyat qəzeti. - 2010. - 22 oktyabr. - N 41. - S. 6.

Mənlik : şeir // Füyuzat. - 2020. - № 5(115). - S. 25.

Mənlik : şeir // Savalan. - 2011. - 17-19 may. - № 32. - S. 7.

Müstəqillik : şeir // Savalan. - 2012. - 24-30 iyul. - № 53/54. - S. 2.

Səadətim ; Balalrım : şeirlər // Ədəbiyyat qəzeti. - 2009. - 7 avqust. - № 30. - S. 6.

Sənin göz yaşların // Savalan. - 2012. - 10-16 iyul. - № 49/50. - S. 1.

Sənin göz yaşların ; Hardasan, ey mənə canımdan əziz... : Firəngiz xanıma həsr olunmuş şeirlər // Ədəbiyyat qəzeti. - 2012. - 9 noyabr. - № 41. - S. 1.

Sorğular : şeir // Savalan. - 2008. - 23-25 sentyabr. - S. 2

Soruş peşimanammı? : şeir // Savalan. - 2011. - 21-24 oktyabr. - № 52. - S. 3.

Vurğunlu Moskva günləri : Səməd Vurğun // Ulduz. - 2006. - № 3. - 41-45.

Yaşa məni ; Ovcumda : şeirlər // Savalan. - 2016. - 17-23 may. - № 28. - S. 2.

**Haqqında kitablarda**

**Aydın xan** "Düyünlənmiş yumruq": zamanın nəbzinə uyğun yeni mənzum dram : Mərkəz Qacarın Xəlil Rzaya həsr olunmuş mənzum pyesi haqqında // Kulturoloji alternativ düşüncələr. - Bakı : Elm, 2006. - S. 168-176.

**Əsgərli Ə.** Xəlil Rza Ulutürkün poetikası. - Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. - Bakı : Aspoliqraf, 2012. - 496 s.

**Hacızadə N.** Yada düşdü : xatirələr, məqalələr, istəklər . - Bakı : Araz, 2008. - 652 s.

**Nəbiyev B.** İstiqlal Şairi : Xəlil Rza Ulutürkün həyatı, mübarizəsi və yaradıcılıq irsi. - Bakı : Elm, 2001. - 348 s.

**Nəbiyev B.** Əbədiyyətə qovuşan sənətkar : Xəlil Rza Ulutürk haqqında // Xəzan vurmasın. - Bakı : Elm, 2006. - S. 183-209.

**Pənah G. V.** Sənətkar və poeziya : monoqrafiya. - Bakı : Sabah, 2010. - 321 s.

**Rza F. (Ulutürk)**. Ulutürkün yolu ilə. I kitab : Xəlil Rza Ulutürk 80. - Bakı : Çənlibel NPM, 2009. - 256 s.

**Sadıq F.** Xəlil Rza kimdir? // Taleyin acığına. - Bakı : Çinar-Çap, 2003. - S. 263-264.

**Ulutürk F.** Xəlil Rza kədərimlə qol-boyun. - Bakı : Qorqud, 2003. - 252 s.

**Ulutürk F.** Ulutürkün yolu ilə Birinci kitab : Xəlil Rza Ulutürk 80. - Bakı : Çənlibel NPM, 2009. - 256 s.

Xəlil Rza Ulutürk : Biblioqrafiya. - Bakı : Zərdabi-Nəşr, 2017. - 464 s.

**Xəlil Rza Ulutürk** ( 1932-1944) // Müasir Azərbaycan ədəbiyyatı : dərslik. - Bakı : Bakı Universiteti nəşriyyatı, 2007. – C.2. - S. 458-465.

**Yaqub Z.** Azadlıq aşiqi : Xəlil Rza haqqında // Millətdə, dövlətdə, sənətdə. - Bakı : Nağıl evi, 2009. - S. 124-129. - Məqalə ilk dəfə "Azərbaycan" qəzetinin 21 aprel 1995-ci il tarixli sayında dərc edilmişdir.

**Yaqub Z.** Xəlil Rza haqqında ürək sözü // Millətdə, dövlətdə, sənətdə. - Bakı : Nağıl evi, 2009. - S. 129-133.

**Xəlil Rzaya həsr edilmiş əsərlər**

**Dəmirçi Z.** Xəlil Rzaya : şeir // Qayalı. - Bakı : UniPrint, 2008. - S. 37.

**Hidayət.** Xəlil Rza : şeir // Azərbaycan harayı. - Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 156-158.

**Qacar M.** Düyünlənmiş yumruq : Dram: 2 hissəli 11 şəkilli. - Bakı : Ulduz, 2004. - 98 s.

**Rüstəmxanlı S.** Xəlil Rzaya mərsiyə // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S. 218-219.

**Yaqub Z.** Xəlil Rzaya ağı : şeir // Seçilmiş əsərləri. 2 cilddə. C.II. - 2006. - SA. 162-166.

**Yaqub Z.** Lefortovo zindanı : şair Xəlil Rzaha həsr olunub // Mən öz dastanımı yazıb gəlmişəm. - B. : Elm və təhsil, 2009. - S. 242-250.

**Həsənzadə N. Ə.**Xəlilin göz yaşı : Xəlil Rza Ulutürkə // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S. 64-65.

**Haqqında mətbuatda**

**Abbaslı T**. Azadlıq Təşnəsi : İstiqlal mənsub-məhsubu, Müstəqillik məhkum-hakimi - Xəlil Rza // Mədəniyyət. - 2017. - 18 oktyabr. - № 81. - S. 13.

**Abbaslı T**. Bir od-alov oğul : sözü ataş, gözü şimşək, mahiyyətcə ulu, fəaliyyətcə olu Türk - Xəlil Rza Ulutürk! // Mədəniyyət. - 2015. - 21 oktyabr. - № 81. - S. 13.

**Anar.** Xəlilin mübarizəsi... Xəlil uğrunda mübarizə // Ədəbiyyat qəzeti. - 2017. - 25 noyabr. - № 42/43. - S. 4-5.

**Bayramlı M**. İstiqlalçılıq və türkçülük timsalı - Xəlil Rza Ulutürksüz 28 il // Yeni Azərbaycan. - 2022. - 22 iyun. - № 109. - S. 8.

**Bayramov Q**. Məslək silahımsan sən, poeziya!. : Xəlil Rza Ulutürk - 80 // Ədəbiyyat qəzeti. - 2012. 12 oktyabr. - № 38. - S. 6.

**Bayramov Q**. Xəlil Rza Ulutürk: O, bu gündür, o, gələcəkdir : Xəlil Rza Ulutürkün "Yurdum, sənin sağlığına" şeirinin təhlili : 1 şeir/2 rakurs // Ədəbiyyat qəzeti. - 2017. - 30 sentyabr. - № 34. - S. 6-7.

**Cəfərov N**. Qürurun üsyanı : Xəlil Rza Ulutürkün "Yurdum, sənin sağlığına" şeirinin təhlili : 1 şeir/2 rakurs // Ədəbiyyat qəzeti. - 2017. - 30 sentyabr. - № 34. - S. 6.

**Ceyhun.** Milli müstəqilliyimizin mübariz şairi : Xəlil Rza Ulutürk - 80 // Mədəniyyət. - 2012. - 10 oktyabr. - № 73. - S. 4.

**Duyğun R**. Vulkan ömrü // Ədəbiyyat qəzeti. - 2021. - 26 iyun. - № 27. - S. 28.

**Əliyeva A**. Haqq pərvanəsi - Xəlil Rza // Mədəniyyət.az. - 2017. - S. 16-19.

**Əsgərli Ə**. Əbədi müasirimiz Səməd Vurğun Xəlil Rza Ulutürkün "Gündəliyi "ini vərəqlərkən : Səməd Vurğun -100 // Ədəbiyyat qəzeti. - 2006. 19 may. - S. 3.

**Əsgərli Ə**. Firəngiz xanım ülgüsü // Ədəbiyyat qəzeti. - 2008. - 12 sentyabr. - S. 6.

**Əsgərli Ə**. Geriyə baxmağa dəyər : Firəngiz xanım Ulutürkün AMEA Nizami adına Ədəbiyyat İnstitutunun fəxri doktoru adını alması münasibətilə // Ədəbiyyat qəzeti. - 2009. - 17 iyul. - S. 3.

**Əsgərli Ə**. İstiqlal şairi : Xəlil Rza Ulutürk // Respublika. - 2012. - 23 avqust. - № 186. - S. 6.

**Əsgərli Ə**. Şair - ictimai xadim : Xəlil Rza Ulutürkü oxuyarkən // Ədəbiyyat qəzeti. - 2013. - 14 iyun. - № 22. - S. 6.

**Əsgərli Ə**. Xəlil Rza Ulutürkün ictimai -siyasi lirikası // Ədəbiyyat qəzeti. - 2012. - 21iyul. - № 27. - S. 4, 6.

**Əsgərli Ə**. Xəlil Rza və Türkiyə ədəbiyyatı // Ədəbiyyat qəzeti. - 2013. - 20 sentyabr. - № 35. - S. 7.

**Hacıheydərli N**. Türkün azadlıq mücahidi : Azərbaycanın xalq şairi Xəlil Rza Ulutürk haqqında // Yeni Azərbaycan. - 2012. - 20 oktyabr. - № 194. - S. 7.

**Hacızadə N**. Şair, səndən yazmaq istəyirəm : Xalq şairi Xəlil Rza ilə görüşlərim // Yada düşdü. - 2013. - № 1. - S. 24-34.

**Hüseynoğlu S**. Ölümündən doğulan şairin kitabları : Xəlil Rza Ulutürk // Ədəbiyyat qəzeti. - 2015. - 25 aprel. - № 24/25. - S. 18.

Xəlil Rza Ulutürkün 80 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (4 iyun 2012-ci il). // Ədəbiyyat qəzeti. - 2012. - 9 iyun. - № 21. - S. 1. ; Azərbaycan dili və ədəbiyyatı tədrisi. - 2012. - № 2. - S. 10.

Xəlil Rza Ulutürkün gündəlikləri // Yada düşdü. - 2017. - № Yanvar-fevral-mart. - S. 22-26.

**Xəlilbəyli F**. Xəlil özünü mənə tanıtmaqla : "Kürsü" layhəsinin bugünkü qonağı Xalq şairi Xəlil Rza Ulutürkün həyat yoldaşıdır / söhbətləşdi S. Əşrəf // Ədəbiyyat qəzeti. - 2019. - 24 avqust. - № 29. - S. 3.

**Xəlilzadə F**. Bayrağımız al günəşdir, çadırımız göy qübbəsi : Xəlil Rza Ulutürk - 80 // Azərbaycan. - 2012. 21 oktyabr. - № 237. - S. 6.

**Xəlilzadə F**. Vəfa xəzinəsi : Şair Xəlil Rza Ulutürk və xanımı Firəngiz haqqında // Kaspi. - 2014. - № 4.

İstiqlal şairi Xəlil Rza Ulutürkün anadan olmasının 80 illik yubileyi təntənə ilə qeyd olunmuşdur // Azərbaycan. - 2012. - 31 oktyabr. - № 242. - S. 6.

İstiqlal və İstiqbal şeirləri / hazırl. Dilsuz // Ədəbiyyat qəzeti. - 2018. - 26 may. - № 20. - S. 16-17.

**Lətifov E**. Zindanları işıqlandıran şair : Xəlil Rza Uluturk haqqında // Mədəniyyət. - 2009. - 21 oktyabr. - N 76. - S. 12.

**Muradoğlu N**. Xəlil Rza Ulutürkün poeziyasında vətəndaşlıq düşüncəsi // Kaspi. - 2016. - 10 dekabr. - № 204. - S. 24.

**Nasir Ş**. Mən ümmanlar təşnəsiyəm... // Respublika. - 2018. - 21 oktyabr. - № 235*. - S. 7.

**Nəbiyev B**. Şair-vətəndaş : Xəlil Rza // Ədəbiyyat qəzeti. - 2007. - 30 noyabr. - S. 2.

**Nəcəfzadə Q**. Buruqla söhbət : Rəsul Rzanın, Əli Kərimin və Xəlil Rzanın unudulmaz xatirələrinə // Azərbaycan. - 2013. - № 3. - S. 168-169.

**Qocayeva Ə**. Yeni nəşrlər "Xəlil Rza Ulutürk" biblioqrafiyası // Səs. - 2018. - 6 yanvar. - № 2. - S. 11.

**Quluzadə Ə**. Azadlıq yolu : Zindan qarşısında lövhə ; Qırmızı qan, qızıl gül ; Rus generallarına məktub : şeirlər // Kaspi. - 2010. - 20-21 yanvar. - N 11. - S. 14.

**Qurbanlı R**. Vəfa örnəyi : Firəngiz xanım Ulutürk Xəlil Rza haqqında // Kaspi. - 2019. - 16 fevral. - № 32. - S. 11.

**Qurbanqızı Z**. Azadlıq mücahidinin vəfalı xanımı // Respublika. - 2013. - 25 avqust. - № 184. - S. 3.

**Rəhmanoğlu E**. İstiqlal şairi // Mədəni həyat. - 2012. - № 12. - S. 16-17.

**Rəşid M**. Yaddaşlarda ömürlük yanan Ulutürk işığı // 525-ci qəzet. - 2019. - 22 iyun. - № 90. - S. 20.

**Rüstəmova N.** "Canım, ey Azadlıq!" : Xəlil Rza haqqında həyat yoldaşı Firəngiz xanım Ulutürk danışır // El. - 2011. - № 10. - S. 30 -41.

**Rüstəmova, N.** Salam, ey Azadlıq! : Xəlil Rza Ulutük - 80 // Mədəni həyat. - 2012. - № 10. - S. 39-41.

**Səfərli A**. İstiqlal şairi - Xəlil Rza Ulutürk // Kaspi. - 2013. - 13 mart. - № 46. - S. 13.

**Səfərli A**. İstiqlal şairi Xəlil Rza Ulutürk : Xəlil Rza Ulutürk - 80 // Kaspi. - 2012. - 29-31 dekabr. - № 454. - S. 20.

**Tukay Q** (1886-1013). Acı təcrübənin səsi // Ədəbiyyat qəzeti. - 2011. - 4 fevral. - № 4. - S. 1.

**Turan A**. Xəlil Rzanın məktubları, yaxud Sovet dövründə ulu türk olmaq // Ədəbiyyat qəzeti. - 2021. - 28 may. - № 23. - S. 6-7.

**Ulduz B.** Sözü ilə əməli bir : Xəlil Rza haqqında // Ədəbiyyat qəzeti. - 2009. - 27 noyabr. - N 45. - S. 1, 3.

**Ulutürk F**. "Vəfa xəzinəsi - Firəngiz" : Xalq şairi Xəlil Rza Ulutürkün ömür-gün yoldaşı Firəngiz xanımla söhbət / müsahibəni apardı Ə. Bayramov // Xalq qəzeti. - 2015. - 1 fevral. - № 24. - S. 6.

**Ulutürk F**. Xəlil Rza Ulutürklə bağlı xatirələr : İstiqlal şairimiz Xəlil Rza Ulutürkün həyat yoldaşı Firəngiz Ulutürk

ilə müsahibə / söhbətləşdi R. Günəş // Azərbaycan Müəllimi. - 2015. - 16 may. - № 17. - S. 8.

**Vahid M**. Xəlil Rza Ulutürk istiqlalçılıq və türkçülük timsalıdır // Kaspi. - 2012. - 23 oktyabr. - № 410. - S. 12.

**Vahid M**. Yaşadığı kimi yazan şair : Oktyabrın 21-i Xəlil Rza Ulutürkün doğum günüdür // Ədəbiyyat qəzeti. - 2015. - 17 oktyabr. - № 54. - S. 10.

**Vahid T**. O, adını tarixə belə yazdı: istiqlal şairi : Xəlil Rza Ulutürk // Mədəniyyət. - 2012. - 2 noyabr. - № 79. - S. 4.

**Vahid T**. Odla oynayan şair : Xəlil Rza Ulutürk - 80 // Mədəniyyət. - 2012. - 24 oktyabr. - № 77. - S. 11.

**Yaqub Z**. Məndə yaşayan Xəlil Rza // Ədəbiyyat qəzeti. - 2015. - 7 mart. - № 14/15. - S. 18-19.

**Zeynalova R.** Xəlil Rza Ulutürkün "Oğul həsrəti" şeirinin tədrisi zamanı şagirdlərə vətənpərvərlik ideyasının təbliği // Azərbaycan dili və ədəbiyyat tədrisi. - 2015. - № 3. - S. 18-20.

**Zərrabqızı X.** Kəskin süjetli mövzular, koloritli epik qəhrəmanlar : Seyran Səxavət - 70 // Mədəniyyət. - 2016. - 18 mart. - № 22. - S. 12.

# İstiqlal şairi Xəlil Rza

**(metodik vəsait)**

**Komputer yığımı və dizayn:** **Məmmədli Ruhiyyə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**